

*Ey şaşırmış könül!*
*Dosta candan gedən bir yol vardır.*
*Ey yolunu itirmiş kişi!*
*Dosta apaçıq da, gizli də bir yol vardır.*
*Altı yöndən də sənin yolunu kəssələr,*
*bağlasalar qorxma, çünki sənin könlünün*
*dərinliklərindən sevgiliyə gedən gizli bir*
*yol daha vardır.*

*MÖVLANA*



**Türkiyə Prezidenti Abdullah GÜL**
**17 avqust 2010-da Şəki Xan sarayının özəl dəftərinə bu sözləri yazdı:**

***“Gözəllikləri və tarixi toxusuyla Bursanı andıran Şəki şəhərində bulunmaqdan böyük məmnuniyyət duydum”.***

**Ədalət TAHİRZADƏ**

# TÜRKİYƏMİZDƏ 10 GÜN




**Bakı - 2011**
**“Ləman Nəşriyyat Poliqrafiya” MMC**

***Naşir:***
AMEA Şəki Regional Elmi Mərkəzi

***Cildin və fotoların tərtibçisi:***
Həmid TAHİRZADƏ

***Kitabın tərtibatı müəllifindir.***

Kitabda verilmiş fotoşəkillər
(bir neçəsi xaric) yazarın çəkdikləridir.

**TAHİRZADƏ Ədalət Şərif oğlu.**
**Türkiyəmizdə 10 gün.**
Bakı: "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2011,
176 səh.

Kitabda AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru Zəkəriyyə Əlizadə və həmin mərkəzin elmi işçisi Ədalət Tahirzadənin 2010-cu ilin noyabrında Türkiyəyə elmi səfəri ilə bağlı təəssüratları öz əksini tapıb. Müəllif publisist bir dillə qardaş Türkiyənin müxtəlif şəhərlərində apardıqları işdən, qatıldıqları görüşlərdən, gördükləri tarix-mədəniyyət abidələrindən geniş söz açır, toxunulan mövzu və problemlərə yeri gəldikcə öz subyektiv münasibətini də bildirir. Əsər Türkiyə ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulub.

(C) Ədalət Tahirzadə

İSBN: 978-9952-8042-8-7

**Yazarla əlaqə:**
E-mail: *adalet_tahirzade@yahoo.com*
Tel.: +99450-612-68-13 (cib)

## İÇİNDƏKİLƏR

Prezident Abdullah Gül Şəkidə .................................... 7
Bu nəşrə ön söz ......................................................... 15
Yazardan bir neçə söz ................................................ 17
Yolumuz İstanbuladır ................................................ 18
Təqsimdə terror ......................................................... 21
"Korsan" (qaçaq) taksilər ............................................ 22
Qələbəlik ................................................................. 24
Fəthi Gədikli ............................................................ 25
Sultan Əhnəd camesi .................................................. 26
Topqapı sarayı ...........................................................28
İmam Hüseynin cübbəsi və başqaları .......................... 31
Peyğəmbər əfəndimizin xirqeyi-şərifi ......................... 33
"Gündoğan yayınları"nda ........................................... 35
Tramvay .................................................................. 37
Metrobus ................................................................. 37
Kamil Koçun Avtobusunda İstanbuldan Bursaya ........ 38
Yenə həmin Yalova... ................................................ 40
Süni meşələr ............................................................. 43
"Marigold" hoteli ....................................................... 44
Bursa – sultanlar şəhəri, şəhərlər sultanı .......................45
Çağdaş Bursa ............................................................ 48
Bursa Böyükşəhər Bələdiyyəsi. Türkiyədə Bələdiyyə...49
Minnətdarlıq ............................................................. 51
Sultan Murad külliyyəsi və türbələri ........................... 52
Fabrikayi-hümayun ..................................................... 56
Türkiyənin faciəsi ....................................................... 58
Osman Qazi və Orxan Qazi türbələri ........................... 59
Saat qülləsi ................................................................ 61
Bursanın xoşbəxt palıdı və Bakının bağları ................. 62
Ulılardan Ulu came .................................................... 63
Ulu camedə Azərbaycan möcüzəsi .............................. 69

“Koza xan” – “Barama karvansarası” ...........................72
Bursada ipəkçilik ........................................................ 73
“Kozabirlik”də ............................................................ 76
Toxum Örətim İşlətməsində ........................................ 79
Balıbəy xanı – karvansarası ......................................... 80
Atarürkün abidəsini və Bursa muzeyini ziyarət ............ 81
Bələdiyyədə qəbul ....................................................... 82
Şəkililər Osmanlı sarayında və Türkiyə ordusunda ...... 84
Niyə Biləcik? .............................................................. 88
Biləcikdə ..................................................................... 89
Şeyx Ədəbalı və türbəsi .............................................. 92
Şeyx Ədəbalının Osman bəyə nəsihəti ......................... 95
Şeyx Ədəbalının ziyarətində ........................................ 98
Biləcik Universitetində ............................................... 100
Yenidən İstanbulda .................................................... 101
Alpərlə söhbət ........................................................... 104
Sabancının ticarət mərkəzi ........................................ 105
“Metro Sity”. “Şirvan” kababxanası .......................... 106
Bakıya dönüş ............................................................. 107
Son söz ...................................................................... 107

**ARTIRMALAR**

Salman MÜMTAZ. Ənvəriyyə (şeir) ........................ 109
Salman MÜMTAZ. Öyün, millət (şeir) ..................... 111

**SƏFƏR FOTOŞƏKİLLƏRİ** ............................ 113-176

## PREZİDENT ABDULLAH GÜL ŞƏKİDƏ[1]

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli *Abdullah Gül* cənabları dünyadakı 78 tarixi şəhər siyahısında bulunan Şəki şəhərinə 17 avqust 2010 tarixindəki ziyarətinə Şəki Türk Şəhidliyindən başladı. Prezident Gül şəhidlikdə etdiyi açıqlamada Azərbaycan və Türkiyənin böyük bir millətin ayrı-ayrı dövlətləri olduğunu, iki ölkə arasında buna yaraşan əməkdaşlıq və dostluğun da olduğunu qeyd edərək dedi:

> *"1918-ci ildə Nuru paşa komandanlığındaki Qafqaz İslam orduları (ki Nuru paşa da 29 yaşında bir generaldı o zaman) buralar işğal altına alınıb, buralarda çox böyük qətli-amlar yapılırkən gəldilər; Bakıda, Şəkidə, Füzulidə, Gəncədə bütün buralardakı qətli-amlarları durdurdular və bütün buraları qurtardılar. Bax, onların izləri buralardadır. Böyük bir şəhidlik Bakıdadır. Bütün Azərbaycanlı qardaşlarımız ozamankı fəryada qulaq asıb gələn və özlərini qurtaran bütün Türklərə və şəhid olanların hamısına (1.300 kişi bilinən rəqəmdir) sahib çıxdılar və onları da bu şəkildə qoruyurlar. Bütün Azərbaycan xalqına, dövlətinə və hökümətinə təşəkkür edirəm – Türk şəhidliklərinə öz şəhidliyi kimi sahib çıxdığı üçün, Türk bayrağı ilə Azərbaycan bayrağını yan-yana bütün şəhidliklərdə bu şəkildə dalğalandırdığı üçün".*

Buradakı çıxışını Prezident Gül belə tamamladı: şəhid olanlar Vətən üçün, din üçün, soydaşlarını zülmdən

[1] Prezident Gülün Şəkiyə səfəri haqqındakı bu bölümdə T.C. Cumhurbaşkanlığının rəsmi saytından yararlanmış, səfərlə bağlı fotoları da buradan götürmüşük.

qurtarmaq üçün özlərini fəda etmişlər. Hamısına rəhmət diləyir, əziz xatirələri önündə sayğıyla baş əyirik.

Ziyarəti sırasında xalq şairi *Bəxtiyar Vahabzadə*'nin də heykəlinə gül qoyan Prezident ona sevgisini göstərən xalqı burada salamladı.

Şəki İslam Mədrəsəsi və eyni yerdə bulunan Cümə məscidində də incələmələrdə bulunan Prezident Gül buradakı uşaqlarla xatirə şəkilləri çəkdirdi.

Daha sonra tarixi *Xan sarayı*'na keçən Prezident Gül 370 yaşlı sarayı gəzdikdən sonra, uzun keçmişinə baxmayaraq bütün ehtişamıyla ayaq üstə duran abidədən ayrılarkən buradaki özəl dəftərə bu sözləri yazdı:

> *"Gözəllikləri və tarixi toxusuyla Bursanı andıran Şəki şəhərində bulunmaqdan böyük məmnuniyyət duydum. Şəki Xan sarayını ziyarətim sırasında Azərbaycanın zəngin tarixi mirasını bir daha görmə fürsəti buldum. Bu gözəl əsərin meydana gətirilməsində və pozulmadan günümüzə daşınmasında əməyi keçən hər kəsə təşəkkür edirəm".*

Prezident Gül daha sonra indi hotel olan tarixi karvansaraya gedərək Şəkidə qalan Qafqaz İslam Ordusu əsgərlərinin nəvələri və Şəki aydınlarıyla bir araya gəldi. Onların arasında AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru, professor *Zəkəriyyə Əlizadə* də vardı.

✵



***Prezident Abdullah Gül Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin abidəsini ziyarət edərkən.***



***2. Şəki cümə məscidində. Arxada öndə duranlar (soldan): 2) Cumhurbaşqanlığı Özəl Qələm müdiri Hüseyn Avni Karslıoğlu, 3) T.C. enerji və təbii qaynaqlar naziri Taner Yıldız, 8) Şəki-Qəbələ bölgəsinin qazisi*** **Hacı Səlim əfəndi** ***Səfərov, 9) Prezident Abdullah Gül, 10) Prof. Dr. Şirməmməd Hüseynov, 11) (göy köynəkli) Prof. Dr. Qüdrət Əbdülsəlimzadə, 13) Böyükelçi Hulusi Kılıç və b.***



*Türkiyəli qonaqlar Şəki Xan sarayında.*



*Prezident Gülün əski karvansarada yerli ziyalılarla görüşü. Stolun ətrafında oturanlar (soldan): 1) Prezident Abdullah Gül, 2) Prof. Dr., millət vəkili Yaqub Mahmudov, 3) Böyükelçi Hulusi Kılıç, 5) Prof. Dr. Şirməmməd Hüseynov, 6) Dr. Zərinə Cavadova, 7) Prof. Dr. Fəxrəddin Qədirov, 8) Prof. Dr. Zəkəriyyə Əlizadə, 10) Prof. Dr. Adil Qəribov, 13) Azərb. xarici işlər nazirinin müavini Xələf Xələfov, 15) Azərb. Baş nazirinin müavini Abid Şərifov. Öndə sağdan birinci: Cumhurbaşqanlığı Özəl Qələm müdiri Hüseyn Avni Karslıoğlu və b.*



*Prezident Gülün əski karvansarada çəkdirdiyi xatirə şəkli. Soldan: 3) Azərb. xarici işlər nazirinin müavini Xələf Xələfov, 4) Prof. Dr. Zəkəriyyə Əlizadə, 5) Böyükelçi Hulusi Kılıç, 7) T.C. enerji və təbii qaynaqlar naziri Taner Yıldız, 8) Prof. Dr., millət vəkili Yaqub Mahmudov, 9) Prof. Dr. Şirməmməd Hüseynov, 10) Prezident Abdullah Gül, 14) Prof. Dr. Adil Qəribov, 16) Cumhurbaşqanlığı Özəl Qələm müdiri Hüseyn Avni Karslıoğlu və b.*



***Prezident Gülün əski karvansara önündə çəkdirdiyi xatirə şəkli. Soldan. Ön cərgədə: 3) Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Murad Cabbarlı, 4) T.C. enerji və təbii qaynaqlar naziri Taner Yıldız, 5) Prezident Abdullah Gül və b. Orta cərgədə: 2) Prof. Dr. Adil Qəribov, 3) Prof. Dr., millət vəkili Yaqub Mahmudov, 5) Dr. Zərinə Cavadova, 6) Prof. Dr. Şirməmməd Hüseynov, 7) Azərb. Baş nazirinin müavini Abid Şərifov, 8) Azərb. xarici işlər nazirinin müavini Xələf Xələfov və b. Arxa cərgədə: 4) Prof. Dr. Zəkəriyyə Əlizadə, 10) Cumhurbaşqanlığı Özəl Qələm müdiri Hüseyn Avni Karslıoğlu, 12) Böyükelçi Hulusi Kılıç və b.***

## BU NƏŞRƏ ÖN SÖZ

Türkiyə səfərindən döndükdən sonra yol qeydlərimi hörmətli *Rəşad Məcid*'in *"525-ci qəzet"*inin 5 sayında (23-27 noyabr 2010, №№ 213-217) dərc etdirdim. Ürəyimdəki duyğuları oxuculara çatdırmaq üçün qəzetində mənə səxavətlə yer ayırmış Rəşad bəyə dərin minnətdarlığımı bildirirəm. Ancaq qəzet yazısı nə qədər geniş olsa da beyində dolaşan bütün düşüncələri onda tam əks etdirmək mümkün deyil. Açığı, yazını qəzetə verərkən xeyli yeri qısaltmağa məcbur olmuşdum, halbuki atdığım həmin hissələrdəki fikirləri söyləməyi çox gərəkli sayırdım. Bu üzdən də həm ixtisar etdiyim yerləri saxlamaqla, həm də onlara yeni bölümlər artırmaqla məqaləni yenidən işləyərək və ona səfərimiz boyunca çəkdiyim fotolardan seçmələri də əlavə edərək əlinizdəki kitabçaya çevirməli oldum.

Artırmalar edərkən Türkiyədən gətirdiyim kitablardan və Türkiyənin İnternet saytlarından yararlanmalı oldum. Bu zaman mənə bir şey də aydınlaşdı – sən demə, Türkiyədə də eynən bizdə olduğu kimi, bir araşdırmaçı yazır, yüzü ondan köçürür. Oxucum maraq üçün İnternetdən, məsələn, "Ulu came" sözünü axtarsa dediyimin doğruluğunu özü görər. Ancaq Türkiyəli qardaşlarımızın bizdən üstünlüyü bundadır ki, onlar halal-haramı seçir, materialı təqdim edərkən ilkin qaynağı, müəllifi göstərirlər, bizimkilərsə, maşallah, yazıya öz dədələrinin malı kimi yiyələnərək altına hətta öz imzalarını atır, ən yaxşı halda heç bir müəllif göstərmirlər.

Əlinizdəki kitabın maarifləndirici olacağını göz önündə tutaraq, gəzdiyimiz, gördüyümüz yerlər haqqında oxucuda maraq doğura biləcək ən az həcmli, ancaq ən

zəngin məlumat toplusu təqdim etməyə çalışdıq və bu zaman ən yeni bilgiləri ortaya qoymağa can atdıq. Azərbaycanla bağlı faktları, təbii ki, qabartdıq, çünki Türkiyədə Azərbaycanla bağlı nələrinsə olması yurddaşlarımıza da maraqlıdır. Biz gücümüz daxilində belə faktları işıqlandırdıq, çünki onların məhz Azərbaycanla bağlılığı Türkiyədə bilinmir. Məsələn, Bursa Ulu camesinin möcüzəli minbərini düzəltmiş usta *Məhəmməd Əbdüləziz oğlu*'nun adını Türkiyə nəşrlərində və İnternet saytlarında çox yerdə oxuya bilərsiniz, ancaq onun Azərbaycandan olması haqqında bircə işarə belə tapmaq mümkün deyil. Əksinə, Məhəmməd Əbdüləziz oğlunun hətta Təbriz yaxınlığında doğulduğunu yazan müəllifin özü onun Türküstandan gəldiyini, başqası Antepdən olduğunu... söyləyir, heç kəsin dilindən *"Azərbaycan"* kəlməsi çıxmır. Mən bu ədalətsizliyi aradan qaldırır, Azərbaycanın halal haqqını burada özünə qaytarıram.

Əlimə qələm alarkən Allahıma və vicdanıma sığındım. Heç kəs məni Azərbaycana tərəfkeşlikdə, yaxud Türkiyəyə heyranlıqda suçlaya bilməz. Yazdığım hər söz, hər cümlə ürəyimin hökmüdür. Yazdıqlarım doğru olmaya bilər, ancaq onlar mənim mütləq gerçəklərimdir.

Səfərimiz məhz Şəki ilə bağlı olduğuna görə şəkililərin qardaş Türkiyəmizə sonsuz və əbədi sevgisinin ifadəçisi olan şəkili sair *Salman Mümtaz*'ın (1884-1941) *Ənvər paşa* və *Nuru paşa*'ya həsr etdiyi şeirlərini kitabçanın sonuna artırmağı da məqsədəuyğun saydım.

## YAZARDAN BİR NEÇƏ SÖZ

17 avqust 2010-da Türkiyə Cümhuriyyətinin Prezidenti *Abdullah Gül* cənabları Şəki şəhərində yerli aydınlarla görüş keçirdi. Görüşə Azərbaycan Baş nazirinin müavini, kökcə Şəkidən olan *Abid Şərifov*, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı *Murad Cabbarlı*, Türkiyənin Azərbaycandakı Böyükelçisi *Hulusi Kılıç* və başqa rəsmi şəxslər də qatılmışdılar. Səmimi görüş zamanı şəkililər Şəki ilə Türkiyənin Bursa şəhəri arasında əski ipəkçilik əlaqələrinin bərpa edilməsi, bu iki şəhərin qardaşlaşması haqqında təşəbbüs qaldırdılar və Gül cənabları bu təklifləri dəstəklədi. Əski ənənələrin yenidən dirçəldilməsi Türkiyə və Azərbaycanın qardaşlığını daha da möhkəmlədən bir iş olduğuna görə şəkililər deyilən sözlərin mümkün qədər tez gerçəkləşməsini arzulayırdılar. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının (MEA) Şəki Regional Elmi Mərkəzi (ŞREM) Şəki Şəhər İcra Hakimiyyətinin də razılığı ilə Bursa şəhərinə, eləcə də Şəkinin Biləcik və Göynük kəndləri ilə onların Türkiyədəki adaşları Biləcik və Göynük şəhərləri arasında tarixi ilişgiləri araşdırmaq üçün həmin şəhərlərə iki nəfəri – Prezident Gul ilə görüşün iştirakçısı olan ŞREM-nin direktoru prof. *Zəkəriyyə Əlizadə*’ni və Elmi Mərkəzin elmi işçisi olaraq məni ongünlük elmi ezamiyyətə göndərməyi qərara aldı.

Şəkidə bütün danışıqların canlı şahidi olmuş Böyükelçi *Hulusi Kılıç* cənabları səfər niyyətimizi bilən kimi bizə hər cür yardımda bulunmağa hazır olduğunu bəyan etdi və Türkiyədə layiqincə qarşılanaraq işləməyimizə yaxşı şərait yaradılması üçün öz əməkdaşlarına göstəriş verdi.

Onun xeyir-duasıyla 31 oktyabrdan 9 noyabradək ömrümüzün 10 gözəl gününü Türkiyəmizdə yaşadıq.

Bizcə, səfər xeyli faydalı keçdi. Bunun başlıca səbəbi isə səmərəli çalışmağımızdan ötrü Türkiyədə yaradılmış əla şəraitdi (həmin şəraitlə sevimli oxucumuz sonrakı qeydlərimizdə tanış olacaq). Türkiyə – Azərbaycan qardaşlığını hər şeydən uca tutaraq səfərimizə göstərdiyi qayğıya görə Böyükelçi ***Hulusi Kılıç*** cənablarına, eləcə də Türkiyədə olduğumuz müddətcə dəfələrlə telefon açaraq problemlərimizlə maraqlanmış, bizə hər cür təşkilati və mənəvi yardımda bulunmuş Böyükelçiliyin Turizm və Tanıtma Müşavirliyinin məsul işçisi ***Nizami Zöhrabi bəy'***ə ürəkdən təşəkkür etməyi özümüzə vicdani borc sayırıq.

## YOLUMUZ İSTANBULADIR

Bakıdan Bursaya birbaşa hava yolu yoxdur, buna görə də *Zəkəriyyə müəllim* biletləri İstanbul reysinə almışdı, çünki İstanbul oraya Ankaradan daha yaxındır.

Oktyabrın 31-də səhər evdən tez çıxdıq, çünki həmin gün vaxt bir saat geri çəkildiyinə görə Bakı hava limanında hər hansı gözlənilməz problemlə qarşılaşmaqdan qorxurduq. Allaha şükür, hər şey nəinki yaxşı, hətta əla keçdi –Zəkəriyyə müəllimin qohumu olan məsul liman işçilərindən biri bizi qarşıladı və bəzi üzücü prosedurlardan canımızı qurtardı.

Təyyarəmiz göyə qalxanda hava buludlu və sərindi. 10-15 dəqiqədən sonra isə buludlar artıq bizdən xeyli aşağıdaydı, günəşin istisi salonu əməlli-başlı qızdırırdı. 2 saat 20 dəqiqəlik uçuşumuzun, demək olar ki, 2 saata

yaxını buludlar üzərində keçdi. İstanbula yaxınlaşdıqca buludlar seyrəldi və yer aydın görünməyə başladı.

İstanbulda son dəfə 18 il öncə – 1992-nin sonunda olmuşdum. O çağdan bu çağa şəhər hədsiz dəyişib.

Dünyanın ən əski şəhərlərindən olan, iki qitədə: Asiya və Avropada yerləşən İstanbul gerçəkdən dünyanın ən romantik şəhərlərindən biridir. O, 330-395-də Roma imperatorluğuna, 395-1204 və 1261-1453-də Şərqi Roma imperatorluğuna, 1204-1261-də Latın imperatorluğuna və nəhayət, 1453-1922-də əzəmətli Osmanlı imperatorluğuna paytaxtlıq edib. Xəlifəliyin Osmanlı dövlətinə keçdiyi 1517-dən ləğv edildiyi 1924-ədək İstanbul həm də islamiyyətin mərkəzi olub.

Bugünkü İstanbul Türkiyənin ən qələbəlik və iqtisadi baxımdan ən önəmli şəhəridir. İqtisadi yüksəlişinə görə o, dünya şəhərləri arasında 34-cü yeri tutur, bələdiyyə sərhədləri göz önünə alınmaqla isə Avropanın ən çox əhalisi olan şəhəridir – son rəsmi hesablamalara görə, burada 12 milyon 915 min adam yaşayır ki, bu da 118 ölkənin (o sıradan Azərbaycan Respublikasının) bütün əhalisindən çoxdur.

1992-dən sonrakı dəyişikliklər elə Atatürk hava limanındanca görünür. Limanın nə ucu var, nə bucağı – Bakı limanından dəfələrcə böyükdür. Təyyarədən enib yükümüzü almağa ayaqla 20 dəqiqədən artıq yol getdik. Yaxşı ki, uzun dəhlizlər boyu üfüqi eskalatorlar işləyir (Bakı hava limanı kiçik olduğuna görə belə eskalatora ehtiyac duyulmur), adamların çoxu onun üzərində rahat hərəkət edir. Bakı limanında bütün əl yükləri yalnız bir yük eskalatorundan götürülür, Atatürk limanında isə hər biri ondan ən azı iki dəfə böyük olan 15 yük eskalatoru

var. Çamadanımızı 10-cu eskalatordan götürüb bayıra çıxdıq. Ancaq təəccüblüdür ki, heç kəs əl yüklərinin bizim olub-olmadığını yoxlamadı (Bakı hava limanında bu işə diqqətlə yanaşılması xoşagələndir). Qapıdan çıxanda bir oğlan bizə yanaşdı və Zəkəriyyə müəllimlə qucaqlaşıb görüşdü. Yol yoldaşım ehtiyatlı adammış – Şəkidən Türkiyə nömrəli telefon götürüb, hava limanında zəng edərək İstanbulda yaşayan və universitetdə oxuyan nəvəsinə yerimizi bildirib. Həmin oğlan da nəvəsi tələbə *Orxan*'dı; enmə vaxtımızı qabaqcadan öyrənərək bizi qarşılamağa gəlmişdi.

Zəkəriyyə müəllimin Türkiyə universitetlərində 2 nəvəsi oxuyur. Böyük nəvəsi *Tural* İzmirdə Ekonomi Universiteti beynəlxalq münasibətlər və finansman (maliyyə) fakültəsinin IV kurs tələbəsidir (onu görə bilmədik). Kiçik nəvəsi Orxansa 2006-cı ildə qurulmuş İstanbul Bilim Universitetinin tibb fakültəsində III kursdadır və bu universitetdə oxuyan yeganə azərbaycanlı tələbədir. Nəvələrin ikisi də yaxşı oxuyur, ancaq öz hesablarına təhsil aldıqlarına görə maddi durumları ürəkaçan deyil.

Şəhəri tanımadığımız üçün bizə Orxan bələdçilik edirdi. Onun çağırdığı taksiylə İstanbulun mərkəzinə üz tutduq. Yol boyu yeni-yeni göydələnlər, yeni körpülər və başqa tikililər diqqətimizi cəlb edirdi. İki gün öncə Cümhuriyyət bayramı qeyd edildiyinə görə küçələrdə bayram təntənəsi hələ də yaşayırdı – hər yan ay-ulduzlu Türkiyə bayraqları, ulu öndər *Mustafa Kamal Atatürk*'ün şəkilləri ilə bəzədilmişdi. Yaşayış evlərində mənzillərin çoxunda vətəndaşlar öz pəncərələri qarşısına qürurla al bayraq asmışdılar. Bu gözəllikləri seyr edə-edə yarım saatdan sonra Məcidiyyəköyə yetişdik və orada yerləşdik.